

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağı haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli 73 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti haqqında Əsasnamə»nin 4-cü hissəsinə əsasən **qərara alıram:**

1. «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağı haqqında Əsasnamə» təsdiq edilsin (Əlavə I).

2. «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağının təsviri» təsdiq edilsin (Əlavə II).

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 14 mart 2013-cü il***

***№ 846***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2013-cü il, № 3, maddə 248) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2013-cü il 14 mart tarixli*
*846 nömrəli Fərmanı ilə*
***təsdiq edilmişdir***

***Əlavə I***

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağı haqqında Əsasnamə

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağı (bundan sonra — bayraq) şərəf, şücaət və şöhrət rəmzi olmaqla, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin (bundan sonra — Xidmət) hər bir əməkdaşına Vətənə sədaqətlə xidmət etmək, öz xidməti vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək borcunu xatırlatmaq üçündür.

2. Bayraq daim Xidmətin binasında olmalıdır.

3. Xidmətin bütün şəxsi heyəti bayrağı mərdlik və fədakarlıqla qorumalı, onun itirilməsinə və kənar şəxslər tərəfindən ələ keçirilməsinə yol verməməlidir.

4. Bayraq rəsmi tədbirlərə və sıra düzülüşlərinə çıxarılır.

5. Bayrağın qorunmasına Xidmətin rəisi və digər məsul şəxsləri cavabdehdirlər.

---

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2013-cü il 14 mart tarixli*
*846 nömrəli Fərmanı ilə*
***təsdiq edilmişdir***

***Əlavə II***

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağının Təsviri

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağı (bundan sonra — bayraq) ikiüzlü qumaşdan, taxta dəstəkdən və qotazlı qaytandan ibarətdir.

2. Bayrağın qumaşı eni 114 sm, uzunluğu 145 sm olan düzbucaqlı şəklindədir. Kənarları üç tərəfdən qızılı rəngli ipək saçaqlarla köbələnmiş üçrəngli (Azərbaycan Respublikası Dövlət bayrağının rənglərində) ikiqat fay ipəkdən hazırlanır.

3. Qumaşın üz tərəfinə qırmızı zolağın ortasında ağ ipəkdən hündürlüyü 38 sm olan aypara və hündürlüyü 20 sm olan səkkizguşəli ulduz tikilir.

4. Qumaşın arxa tərəfinə qırmızı zolağın ortasında ağ və sarı ipəkdən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin emblemi (diametri 50 sm) tikilir. Emblemin sol tərəfi bayrağın sol kənarından, sağ tərəfi isə bayrağın sağ kənarından 47,5 sm aralıdır.

5. Qumaşın yuxarı kənarı boyunca mavi zolaqda qızılı rəngli ipək sapla «Azərbaycan Respublikası» sözləri tikilir. Yazıdakı hərflərin hündürlüyü 6,5 sm-dir.

6. Qumaşın aşağı kənarı boyunca yaşıl zolaqda qızılı rəngli ipək sapla «Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti» sözləri tikilir. Yazıdakı hərflərin hündürlüyü 6,5 sm-dir.

7. Bayrağın dəstəyi en kəsiyinin diametri 4,0 sm, uzunluğu 250 sm olan girdə taxtadandır.

8. Dəstək tünd-qəhvəyi boya ilə rənglənir və üzərinə lak çəkilir. Dəstəyin aşağı ucunda metal halqa, yuxarı ucunda nikellənmiş fiqurlu ucluq vardır.

9. Bayrağın qaytanı eşmədir, qızılı rəngli ipəkdən hazırlanır, hər iki ucunda qotaz vardır. Qaytanın uzunluğu 280 sm-dir (bayrağın şəkli əlavə edilir).

---

# «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin bayrağının təsviri»nə əlavə



---

*© «VneshExpertService» LLC*